**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№372/5** **29 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2019-cu il 31 oktyabr tarixli 313/3 nömrəli qərarı ilə I redaksiyada, 2021-ci il 12 iyul tarixli 332/7 nömrəli qərarı ilə II redaksiyada təsdiq edilmiş "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"ə dair arayış barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2019-cu il 31 oktyabr tarixli 313/3 nömrəli qərarı ilə I redaksiyada, 2021-ci il 12 iyul tarixli 332/7 nömrəli qərarı ilə II redaksiyada təsdiq edilmiş "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesbatlarının auditi aparan kənar auditorlara qarşı xüsusi tələblər"ə dair Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) tərəfindən təqdim edilmiş arayışı müzakirə edərək və Şura üzvlərinin təklifləri nəzərə alınaraq Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditor xidmətlərinin göstərilməsində şəffaflığın təmin edilməsi, xidmətin keyfiyyətinin yüksəldilməsi və Auditorlar Palatası Şurasının 2019-cu il 31 oktyabr tarixli 313/3 nömrəli qərarı ilə I redaksiyada, 2021-ci il 12 iyul tarixli 332/7 nömrəli qərarı ilə II redaksiyada təsdiq edilmiş "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesbatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"in təkmilləşdirilməsi məqsədilə aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

İşçi qrupunun sədri:
Səbuhi Gülməmmədov – Auditorlar Palatasının icraçı direktoru

İşçi qrupunun üzvləri
Qəşəm Bayramov – Auditorlar Palatası Aparatının rəhbəri;
Nəcəf Talıbov – Sədrin elmi-metodik məsələlər üzrə müşaviri;
Vasif Cavadov – Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi;
Altay Cəfərov – Auditorlar Palatası Şurasının üzvü, sərbəst auditor;
Elçin Əliyev – Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin sədri, "BKR Consulting" MMC-nin direktor-auditoru;
Ənvər Aslanov – Palatanın Şurası yanında Auditin hüquqi təminatı üzrə komitənin sədri, sərbəst auditor.

2. İşçi qrupuna tapşırılsın ki, üç ay müddətində beynəlxalq təcrübə nəzərə alınmaqla "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesbatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"in təkmilləşdirilməsinə dair təkliflərini təqdim etsinlər.

3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**